*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 46-53*

https://doi.org/10.62837/2026.1.46

**SAMIRƏ HƏSƏNOVA**
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***
***Naxçıvan Müəllimlər İnstitutu***
***samirehesenova75@gmail.com***
***ORCID İD: 0009-0006-5933-3979***
**HƏCƏR ƏLIYEVA**
***Naxçıvan Müəllimlər İnstitutu***
***Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası***
***üzrə II kurs magistrantı***
***liyevah06@gmail.com***

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ AZƏRBAYCAN DİLİNİN FƏNN KURİKULUMUNDA "SİNTAKSİS" BÖLMƏSİNİN TƏDRİSİNDƏ FƏNDAXİLİ İNTEQRASİYA PEDAQOJİ TEXNOLOGİYA KİMİ

***Xülasə***

Məqalədə ümumtəhsil məktəblərində Azərbaycan dili fənninin kurikulumunda yer alan "Sintaksis" bölməsinin tədrisində fəndaxili inteqrasiyanın pedaqoji texnologiya kimi tətbiqi məsələləri araşdırılır. Fəndaxili inteqrasiyanın mahiyyəti, məqsədi, vəzifələri və didaktik imkanları nəzəri aspektdə təhlil edilir, sintaksisin fonetika, leksikologiya, morfologiya və üslubiyyatla qarşılıqlı əlaqəsi əsaslandırılır.

Müasir təlim texnologiyalarının tətbiqi fonunda fəndaxili inteqrasiyanın şagirdlərin dil və nitq bacarıqlarının inkişafında rolu göstərilir.

Məqalədə həmçinin müəllim fəaliyyətinin təşkili, təlim nəticələrinin qiymətləndirilməsi və inteqrativ dərslərin səmərəliliyi məsələlərinə toxunulur. Diqqətə çatdırılır ki, dərsliklərdə verilmiş inteqrativ tapşırıqlar şagirdlərin sintaksis biliklərini real həyat situasiyalarında tətbiq etməsinə imkan yaradır və təlim prosesinin keyfiyyətini artırır.

**Açar sözlər:** Azərbaycan dili, sintaksis, fəndaxili inteqrasiya, kurikulum, pedaqoji texnologiya, nitq bacarıqları

Müasir dövrdə təhsil sistemində aparılan islahatlar təlimin məzmununa, forma və metodlarına yeni yanaşmaların tətbiqinin zəruri və səmərəli olmasını tələb edir. Azərbaycan Respublikasında ümumtəhsil məktəbləri üçün hazırlanmış fənn kurikulumları da məhz bu tələblər əsasında qurulmuşdur. Kurikulumun əsas məqsədi şagirdlərdə yalnız biliklərin deyil, eyni zamanda bacarıq və səriştələrin formalaşdırılmasını, məzmun standartlarının reallaşmasını və nəticəyönümlü fəaliyyəti izləməkdən ibarətdir. Milli Kurikulumlar bir qayda olaraq ana dili ilə başlanır. [1, səh. 6]. Bu baxımdan Azərbaycan dili fənninin tədrisi xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan dili fənni digər fənlərin tədrisi üçün baza rolunu oynayır. Mətn oxuma, dinləmə, yazma və danışma bacarıqları bütün fənlərin tədrisində tələb və tətbiq olunur. Bu səbəbdən də digər fənlərə görə Azərbaycan dili fənninin inteqrativ potensialı xüsusilə genişdir. Çünki Azərbaycan dili dərsliklərində mövcud olan mətnlər və tapşırıqlar inteqrasiya üçün geniş imkanlar yaradır.

Dil vahidlərinin leksik-semantik, morfoloji və sintaktik xüsusiyyətlərini anlamaq, onların birləşmə proseslərini izləmək, dildə baş verən linqvistik hadisələrin düzgün izahını vermək, bir dilçi kimi bu sahədə yeni fikir bildirmək tədris prosesində daha effektiv sayılır. Ümumiyyətlə, dilçi-müəllimin nitqinin, məntiqi təfəkkürünün, mühakimələrinin və biliyinin mükəmməl olması onun bir o qədər fənnə, hətta dilin nəzəri məsələlərinə belə şagirdlərdə dərin maraq oyada bildiyini göstərir. Müəllim tədris prosesində şagirdlərdə qarşılaşdığı hər bir yeni terminin mənasını axtarmaqda, cümlədəki mənalarını fərqləndirməkdə həvəs yaratmalı, onlarda lüğətlərlə işləmək bacarığı formalaşdırmalıdır. Bunlarla yanaşı, Azərbaycan dilini tədris edən hər bir müəllim fənlərarası və fəndaxili inteqrasiyanın bütün imkanlarını dərindən bilməli və onu öz təcrübəsində tətbiq etməyi bacarmalıdır. Bu səbəbdən də Azərbaycan dilinin tədrisində müşahidə olunan, metodika və didaktika sahəsində mövcud ədəbiyyatlara istinad edərək müəyyənləşdirilən qaydalar aşağıdakılardır:

- Fəndaxili əlaqə proqramlarda lazımınca nəzərə alınmalı;
- Dilin struktur-semantik sistem kimi dərk olunması təlimdə metodik istiqamətlərlə müəyyənləşməli (yazı və oxu proseslərinin tənzimləyiciləri olan orfoepik və orfoqrafik normalar daxili əlaqə münasibətləri əsasında meydana çıxır);
- Fəndaxili əlaqədən istifadə etmək üçün daha potensial mövzular nəzəri cəhətdən şərh edilərək təhlil nümunələri verilməli;
- Fəndaxili əlaqənin mövzulararası, kurslararası, bölmədaxili əlaqə imkanları xüsusi olaraq tədqiqata çevrilməli, təcrübədə meydana çıxan nümunələrin ümumiləşdirilməsi aparılmalı və metodik tövsiyələr əsasında müəllimlərə istiqamət verilməli;
- Fəndaxili əlaqə təlimində qanun, prinsip, metod, forma və ya vasitə olması barədə sistemli şərhlər verilməli.

Azərbaycan dilinin fəndaxili əlaqədə tədrisinin nəzəriyyə və təcrübəsi, habelə sistematik qurulan dərslər, fəndaxili əlaqə, onun formaları, mənimsəməyə təsiri, pedaqoji psixoloji amillərin gözlənilməsi ilə qabaqcıl təcrübədən alınan optimal nəticələrdən ibarətdir [2, səh.72].

Qeyd etməliyik ki, müəllim tədris prosesində istər fənlərarası, istərsə də fəndaxili inteqrasiyadan nə zaman və necə istifadə etməyi, dərsin planlaşdırma modelini necə qurmağı bacarmalıdır. Bunun üçün də müəllimdən nəzəri, pedaqoji hazırlıq, nitqinin təmizliyi, sadəliyi, məntiqi təfəkkürünün iti və yaradıcı düşüncəyə sahib olması tələb olunur. Bu baxımdan inteqrativ təlim tədris prosesini

təkmilləşdirir, müəllim və tələbələrin imkanlarını genişləndirir və fənlər arasında qarşılıqlı əlaqəni dərinləşdirir. İnteqrasiyanın köməyi ilə şagirdlər öyrəndikləri bilik və bacarıqlar arasında qarşılıqlı əlaqəni anlayır, onlardan şəxsi məsələlərin və təlim prosesində yaranan situasiyalı problemlərin həll edilməsində istifadə edir. Müəllimlər isə bunlarla kifayətlənməməli, yeni inteqrativ əlaqə imkanlarının axtarışında olmalıdırlar. Beləliklə, inteqrativ kurikulum belə bir məqsədi reallaşdırmağa imkan verir ki, məktəblər təhsilə ayrı-ayrı fənlərin öyrədilməsi kimi deyil, XXI əsrin tələb etdiyi həyatı bacarıqların inkişaf etdirilməsi prosesi kimi baxsınlar.

Azərbaycan dili fənnində fəndaxili inteqrasiya dilin struktur səviyyələrinin, o cümlədən sintaktik konstruksiyaların dilin digər vahidləri və bölmələri ilə qarşılıqlı əlaqədə öyrədilməsi ilə reallaşır. Bu yanaşma şagirdlərin dili mexaniki qaydalar toplusu kimi deyil, canlı ünsiyyət vasitəsi kimi dərk etməsinə və tətbiqetmə bacarığının formalaşmasına şərait yaradır.

Azərbaycan dili fənni dilin bütün səviyyələrini – fonetika, leksikologiya, morfologiya, sintaksis və üslubiyyatı əhatə edən, bu bölmələri qarşılıqlı şəkildə öyrənən kompleks bir sistemdir. Bu sistemin ayrılıqda deyil, qarşılıqlı əlaqədə öyrədilməsi təlimin keyfiyyətini yüksəldir, təhsilalanlarda dilin bütün sahələrinə aid bilik və bacarıqların formalaşmasına və dil qaydalarının dərindən mənimsənilməsinə kömək edir. Xüsusilə “Sintaksis” bölməsi dilin digər sahələri ilə sıx əlaqədə olduğundan onun tədrisində fəndaxili inteqrasiyanın tətbiqi pedaqoji texnologiya kimi mühüm əhəmiyyət daşıyır.

Azərbaycan dili fənnində fəndaxili inteqrasiya dinləyib-anlama, oxu, yazı, şifahi nitq və qrammatika məzmun xətləri arasında həyata keçirilir. Sintaksis bölməsi bu məzmun xətlərini birləşdirən əsas sahələrdən biri kimi çıxış edir. Cümlə anlayışının öyrədilməsi oxu və yazı bacarıqları ilə sıx bağlı olmaqla yanaşı, şagirdlərin ünsiyyət bacarıqlarının inkişafına da xidmət edir.

“Sintaksis” bölməsinin digər bölmələrlə əlaqəli tədrisi olmadan bu haqda əldə olunan məlumatları möhkəmləndirmək, bilikləri dəqiqləşdirmək və dərinləşdirmək, o cümlədən verilən tapşırıqlar üzərində tətbiq etmək mümkün deyil. Əlaqə təlimin zəruriliyini və səmərəliliyini təmin edir. Müqayisə edilməsi vacib olan anlayışları əlaqələndirmədən, müqayisə etmədən mahiyyəti istənilən səviyyədə dərk etmək, məzmunu anlamaq qeyri-mümkündür. Əvvəl əldə olan biliklərlə sonrakı bilikləri qarşılaşdırmaq əlaqənin zəruriliyini bir daha sübut edir. Çünki əvvəlki biliklər sonrakılar üçün zəmin yaratmalı, sonra əldə olunan biliklər isə həmin zəmindən istifadə edərək elmi sistemi tamamlamalı və bütövləşdirməlidir.

Qeyd etdiyimiz fikirləri dilçi-alim M.Həsənovun aşağıdakı sözləri ilə ümumiləşdirmək olar: “Morfologiyanın tədrisi prosesində sintaksisə hazırlıq işləri aparmaq, eləcə də, sintaktik materialları morfoloji biliklər əsasında izah etmək müəllimin arzusundan asılı deyil. Bu qrammatikanın bərabərhüquqlu hissələri

arasındakı təbii əlaqədən, habelə təlimdə müvafiqlik prinsipi ilə bağlı olan əlverişlilik prinsipindən doğan ehtiyacdır" [3, s. 27].

Təlim prosesində müəllimin ən böyük məharəti sintaksisdən hər hansı bir mövzunu tədris edərkən bu mövzunun əvvəl öyrətdiyi hansı mövzu ilə, habelə əvvəl öyrədilmiş bölmələrdəki hər hansı dil məsələləri ilə əlaqəli olduğunu müəyyənləşdirməsi və onları əlaqələndirməsidir .

Qrammatikanın bir şöbəsi kimi ***sintaksis*** dil vahidlərinin – söz birləşməsi, cümlə və mətnin quruluşunu öyrənən dilçilik sahəsidir. Sintaksis sintaktik vahidlər sisteminin ***(söz birləşmələri, sadə cümlə, mürəkkəb cümlə, mürəkkəb sintaktik bütövlər)***, sintaktik vahidlərin qurulmasını və bağlama vasitələrini öyrədir. Sintaksis ***söz birləşmələri, cümlə və sintaktik bütövləri*** əhatə edir [4, səh. 3].

Azərbaycan dili sintaksisi morfologiyadan sonra tədris olunan ikinci böyük bölmədir ki, bu bölmə ilə bütövlükdə qrammatika təliminə yekun vurulur. Sintaksis bölməsinin tədrisinin yüksək səviyyədə təşkili və keçirilməsi Azərbaycan dili tədrisi qarşısında duran didaktik vəzifələrin məqsədəuyğun şəkildə həyata keçirilməsini təmin edir.

Azərbaycan dili sintaksisinin elmi-nəzəri və elmi-metodiki tərəfləri daim dilçi və metodistlərin tədqiqat predmeti olmuş, onun bütün məsələləri diqqət mərkəzində dayanmışdır. Sintasis bəhsi üzrə əsaslı tədqiqat işi aparan Məmməd Həsənov sintaksis haqqında **"... sintaksis qrammatikanın yekunudur və özündə Azərbaycan dili məktəb kursunun, demək olar ki, bütün mətləblərini əhatə edir**"... Dilin ünsiyyət vasitəsi olması yalnız leksik və morfoloji kateqoriyaların köməyi ilə həyata keçirilə bilər. Ünsiyyət vasitəsi olmaq vəzifəsinin yerinə yetirilməsi üçün sözlərin cümlədə birləşib bitmiş fikir ifadə etməsi lazımdır" [3, səh. 4].

Ümumtəhsil məktəblərində tədris prosesində sintaksisin qarşısında konkret olaraq aşağıdakı vəzifələr durur:

1. Sintaksis üzrə zəruri və vacib olan anlayışların şüurlu şəkildə mənimsədilməsi.
2. Sintaksis üzrə zəruri olan bilik və bacarıqların şagirdlərə aşılanması.
3. Şagirdlərə bir sıra ədəbi nitq normalarına, xüsusilə intonasiya, durğu işarələri və sintaktik üslubi normalara aid ən mühüm biliklərin verilməsi, şagirdlərdə praktik bacarıqların formalaşdırılması.
4. Sintaksis üzrə məktəb kursunun sistemli şəkildə şagirdlərə öyrədilməsi.
5. Dilin digər bölmələrinə aid verilmiş biliklərin möhkəmləndirilməsi və yeni məlumatların dəqiqləşdirilməsi.

Orta məktəbdə sintaksis kursunun qarşısında duran başlıca məqsəd şagirdlərin idrak qabiliyyətlərini inkişaf etdirmək, düzgün yazı qaydalarına alışmalarını təmin etmək və onlarda mədəni nitq vərdişləri formalaşdırmaqdan ibarətdir.

Deməli, ümumtəhsil məktəblərində sintaksisin tədrisi şagirdlərdə:

- düzgün və məntiqi cümlə qurmaq,
- fikrini ardıcıl və aydın ifadə etmək,
- yazılı və şifahi nitq bacarıqlarını inkişaf etdirmək kimi əsas kompetensiyaların formalaşmasına xidmət edir.

Qeyd etmək lazımdır ki, sintaksisin tədrisi zamanı leksik-semantik, morfoloji, orfoepik, intonasiya, durğu işarələri və qrammatik-üslubi normaların mənimsədilməsində yeni təlim metodlarının tətbiqi imkanları daha genişdir. Bütün bu imkan və vasitələr öz mənasını cümlədə tapdığına görə, əslində sintaktik məfhumların öyrədilməsi ədəbi nitq normalarının mənimsədilməsi üçün zəmin rolunu oynayır. Sözlər öz konkret mənalarını ancaq cümlə daxilində tapır. ***Cümlə*** ünsiyyətə xidmət edən ilk və əsas vahid sayılır. Cümlə fikrin formalaşması, ifadəsi, başqasına ötürülməsi üçün əsas vasitə sayıldığından özünün çoxaspektliliyi ilə səciyyələnir. Sözlər cümlə daxilində müxtəlif qrammatik şəkilçilər qəbul edir. Demək olar ki, sözlərin şəkilçi qəbul edərək dəyişməsi qaydaları əsasən, morfologiya bəhsində öyrədilir. Bütün bunlar sintaksisin tədrisi zamanı təkrarlanır, bu da bir tərəfdən morfologiyanın tədrisi zamanı verilmiş bilik və bacarıqların möhkəmləndirilməsinə, digər tərəfdən də morfoloji normaların öyrədilməsinə xidmət edir.

Yeni mövzunun ilk anlayışlarla, daha doğrusu, oxşar anlayışlara istinad etmədən tədris etmək lazımi nəticə verə bilməz. Əgər şagird ismin hal və mənsubiyyət şəkilçilərini bilmir və ya yaddan çıxarıbsa, o, ismi birləşmələri, o cümlədən sintaktik əlaqələri dərk edə, öyrənə bilməz. Yaxud feli sifət, feili bağlama və məsdər şəkilçilərini tanımırsa, feili birləşmələri öyrənməkdə, bunları cümlələrdə müəyyənləşdirməkdə, cümlə daxilində işlətməkdə çətinlik çəkəcək. Deməli, buradan belə bir nəticə əldə etmək olar ki, sadaladığımız bu cəhətlər sintaksisin morfologiya ilə əlaqəli tədrisinin zəruriliyini bir daha sübut edir.

Bunlardan əlavə, sintaktik əlaqələr morfoloji vasitələr – hal, şəkilçi, zaman, şəxs kateqoriyaları vasitəsilə ifadə olunur. Məsələn, xəbərin mübtəda ilə uzlaşması morfoloji biliklərə əsaslanır. Bu baxımdan sintaksisin morfologiya ilə inteqrasiyası təlimin məntiqi ardıcıllığını təmin edir.

Sintaksisin fonetika ilə inteqrasiyası əsasən intonasiya, vurğu və pauzaların cümlə quruluşundakı rolu ilə bağlıdır. Cümlənin məqsəd və intonasiyaya görə növlərinin (xəbər, sual, əmr, nida) düzgün tələffüzü intonasiya vasitəsilə reallaşır. Bu zaman məqsəddən asılı olaraq, cümlənin düzgün intonasiya ilə oxunması təmin edilməlidir. Burada müəllimin əsas vəzifəsi bu istiqamətlərdə iş aparmağın yerini, işin təşkili yollarını düzgün müəyyənləşdirməkdir. Bu inteqrasiyanın tədrisdə nəzərə alınması şagirdlərin şifahi nitqinin, oxu vərdişlərinin inkişafına və ədəbi tələffüz normalarının gözlənilməsinə müsbət təsir göstərir.

Leksikologiya və frazeologiya bəhsinin tədrisində verilən məlumatlar sintaksis materiallarının öyrədilməsinə zəmin yaradır. Məsələn, sərbəst söz

birləşmələri ismi və feili birləşmələr tədris edilərkən onları frazeoloji birləşmələrlə müqayisə etmək həm əvvəl verilən məlumatları yada salır, həm də yeni məlumatları şüurlu şəkildə mənimsəməyə kömək edir. Cümlədə sözlərin semantik uyğunluğu sintaktik əlaqələrin düzgün qurulmasında mühüm rol oynayır. Leksik mənası anlaşılmayan sözlərlə qurulan cümlələr məna baxımından qüsurlu olur. Buna görə də sintaksis dərslərində söz ehtiyatının zənginləşdirilməsi ilə bağlı tapşırıqların verilməsi fəndaxili inteqrasiyanın bariz nümunəsi hesab olunur.

Sintaksisin üslubiyyat ilə inteqrasiyası əsasən, şagirdlərin yazılı və şifahi nitqində söz sırasının pozulmamasına, sözlərin cümlədə qeyri-dəqiq və yersiz şəkildə işlədilməməsinə, vasitəsiz və vasitəli nitqin bir-biri ilə qarışdırılmamasına, ədəbi dil normalarının, sözlər arasında idarə və uzlaşma əlaqələrinin gözlənilməsinə müsbət təsir edir və bu sahədə əlaqənin əhəmiyyətli rol oynadığını diqqətə çatdırır.

Belə ki, sintaktik vahidlərin öyrənilməsi fonetik tələffüz, leksik məna, morfoloji formalar və üslubi çalarlarla birgə aparılmalıdır. Eyni məzmun müxtəlif üslublarda fərqli sintaktik quruluşlarla ifadə oluna bilər. Bədii, elmi, publisistik və rəsmi üslublarda cümlə quruluşunun xüsusiyyətlərinin müqayisəli öyrənilməsi şagirdlərin funksional dil bacarıqlarını, şifahi və yazılı niqini inkişaf etdirir.

Kurikulumda "Sintaksis" bölməsi təkcə nəzəri biliklərin verilməsi ilə məhdudlaşmır, praktik fəaliyyətə yönəlmiş tapşırıqlarla da müşayiət olunur. Bu isə fəndaxili inteqrasiyanın tətbiqini zəruri edir.

Həmçinin fəndaxili inteqrasiyanın sintaksisin tədrisində tətbiqi:

- şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirir,
- nitq mədəniyyətini yüksəldir,
- biliklərin uzunmüddətli yadda saxlanmasına şərait yaradır,
- öyrənməyə motivasiyanı artırır.

Bu yanaşma nəticəsində şagirdlər cümlə quruluşunu yalnız qayda kimi deyil, real ünsiyyət vasitəsi kimi dərk edirlər.

Nəticə olaraq qeyd etmək lazımdır ki, ümumtəhsil məktəblərində Azərbaycan dili fənninin "Sintaksis" bölməsinin tədrisində fəndaxili inteqrasiya pedaqoji texnologiya kimi böyük didaktik imkanlara malikdir. Dilin müxtəlif sahələri arasında əlaqələrin yaradılması şagirdlərin sistemli bilik əldə etməsinə, nitq bacarıqlarının inkişafına və dilə şüurlu münasibətin formalaşmasına xidmət edir. Müəllimin bu prosesi məqsədyönlü şəkildə təşkil etməsi təlimin keyfiyyətini və effektivliyini əhəmiyyətli dərəcədə yüksəldir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə Təhsil Proqramı (Kurikulumu). (V-XI siniflər), -Bakı, -2015. -208 s.
2. Əlləzova, M. Azərbaycan dilinin tədrisində fəndaxili və fənlərarası inteqrasiyanın bəzi məsələləri // Azərbaycan dili və ədəbiyyat tədrisi, -2022. -№3(273), s. 68-79

3. Həsənov, M.S. Azərbaycan dili sintaksisinin tədrisində qarşıya çıxan çətinliklər / M.Həsənov. -Bakı, -1987. -152s.
4. Kazımov, Q.Ş. Müasir Azərbaycan dili. Sintaksis / Q.Kazımov. -Bakı, -Ünsiyyət, -2000. -496 s.

**Самира Гасанова**
**Хаджар Алиева**

# ВНУТРИПРЕДМЕТНАЯ ИНТЕГРАЦИЯ КАК ПЕДАГОГИЧЕСКАЯ ТЕХНОЛОГИЯ В ПРЕПОДАВАНИИ РАЗДЕЛА «СИНТАКСИС» УЧЕБНОЙ ПРОГРАММЫ ПО АЗЕРБАЙДЖАНСКОМУ ЯЗЫКУ В СРЕДНИХ ШКОЛАХ

## *РЕЗЮМЕ*

В статье рассматриваются вопросы применения внутрипредметной интеграции как педагогической технологии в преподавании раздела «Синтаксис» учебной программы по Азербайджанскому языку в средних школах. С теоретической точки зрения анализируются сущность, цель, задачи и дидактические возможности внутрипредметной интеграции, обосновывается взаимодействие синтаксиса с фонетикой, лексикологией, морфологией и стилистикой.

На фоне применения современных образовательных технологий показана роль внутри предметной интеграции в развитии языковых и речевых навыков учащихся.

В статье также затрагиваются вопросы организации деятельности учителя, оценки результатов обучения и эффективности интегративных уроков. Отмечается, что интегративные задания, представленные в учебниках, позволяют учащимся применять свои синтаксические знания в реальных жизненных ситуациях и повышают качество учебного процесса.

***Ключевые слова:*** азербайджанский язык, синтаксис, внутрипредметная интеграция, учебная программа, педагогические технологии, речевые навыки.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 46-53*

**Samira Hasanova**
**Hajar Aliyeva**

## İNTRA-CURRICULAR INTEGRATION AS A PEDAGOGICAL TECHNOLOGY IN TEACHING THE "SYNTAX" SECTION OF THE AZERBAIJANI LANGUAGE CURRICULUM IN SECONDARY SCHOOLS

***SUMMARY***

This article examines the application of intra-curricular integration as a pedagogical technology in teaching the "Syntax" section of the Azerbaijani language curriculum in secondary schools. From a theoretical perspective, the essence, purpose, objectives, and didactic potential of intra-curricular integration are analyzed, and the interaction of syntax with phonetics, lexicology, morphology, and stylistics is substantiated.

The role of intra-curricular integration in developing students' language and speech skills is demonstrated against the backdrop of the use of modern educational technologies.

The article also addresses issues of organizing teacher activities, assessing learning outcomes, and the effectiveness of integrated lessons. İt is noted that integrated assignments presented in textbooks allow students to apply their syntactic knowledge in real-life situations and improve the quality of the learning process.

***Key words:*** Azerbaijani language, syntax, intra-subject integration, curriculum, pedagogical technologies, speech skills.

**Rəyçi**: **filologiya üzrə fəlsəfə doktoru, professor Əbülfəz Quliyev**